BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Humanitar elmlər seriyası 2013*

## TARİX

**UOT 94"16/18"**

# BERLİN MÜQAVİLƏSİNİN 61-ci MADDƏSİ: BAXIŞLAR VƏ MÖVQELƏR

**İSMAYIL MUSA**
***Bakı Dövlət Universiteti***
***İsmayıl_musa@rambler.ru***

*"Berlin konqresində Avropa ermənilərə həqiqi muxtariyyət verməsə də onlara öz məqsədlərinə yetişməyə şərait yaradacaq bir maddə bağışlamışdı (Berlin konqresindəki erməni təmsilçilər heyətinin tərcüməçi-katibi N.Çeras)* [1,29].

*Məqalədə böyük və maraqlı dövlətlərin "erməni məsələsi"ni Berlin konqresində beynəlxalq münasibətlərə gətirməsi məsələləri araşdırılır. İşdə başlıca diqqət Berlin müqaviləsinin 61-ci maddəsinə dair elmi-siyasi baxışların təhlilinə yönəldilmişdir. Burada Osmanlı və digər dövlətlərin arxivlərinin müəyyən materialları təhlil edilmişdir.*

**Açar sözlər:** Berlin, konqres, müqavilə, 61-ci maddə, kilsə, erməni

Berlin konqresinin (orada qəbul edilən müqavilənin LXI maddəsinin) ermənilər üçün nəticələrinə və bundan sonra görülməsi lazım bilinən işlərə dair baxışlara xülasə verən Topciyan "Gənc türklər və ermənilər" əsərində (Tiflis, 1919, ermənicə) yazırdı ki, "Berlindən sonra Hırimyan moizələri ilə xalqa azadlıq və müstəqillik üçün çalışmağın vacibliyini aşılamağa davam edirdi; Narbey uğursuzluğun səbəbini xalqın biganəliyində və çalışmamasında görürdü. Varjabedyan da müstəqillik üçün hazırlanmaq öyüd-nəsihətini verirdi; N.Çeras və b. da xaricilərə bel bağlamamaq, millət olaraq hazırlanmaq və iş görmək; Katiba (Qafqazlı erməni şairi – İ.M.) boyun əyməmək, azadlığı kimsədən dilənməmək, silahla almaq yollarını göstərirdilər; Raffi (Salmaslı, tarixi romanlar müəllifi – İ.M.) də əsərləri ilə ermənilərə bu hərəkətlər üçün lazım olan planları anladırdı; həyat (?! – İ.M.) isə xalqı bu xitablardan çox,

əməli şikayətlərə və müdafiə təşkilatına, silahlanmağa sövq edirdi"(2,69).

"Berlin uğursuzluğu"nun səbəblərinin araşdırıldığı və durumdan çıxış yollarının arandığı erməni qurumlarından biri də onların Milli Məclisi olmuşdur. Bunu onun dördüncü və beşinci iclaslarının materiallarından, yəni protokollarından da görmək mümkündür. Adı çəkilən qurumun Protokol dəftərində əksini tapan və E.Uras tərəfindən də elmi dövriyyəyə (2, 255-266) daxil edilən həmin sənədlər "erməni məsələsi"nin yetişdirilməsi prosesini araşdırmaq üçün xeyli materiallar verir. Erməni milli məclisinin - İstepan Arslanyanın sədrliyi ilə keçən - dördüncü iclasında onun 12 üzvü, o cümlədən də 3 nəfər vartabet (yüksək dərəcəli rahib) tərəfindən sorğu verilmişdi. Həmin sorğuya, yəni "erməni məsələsi"nə dair də qərar qəbul edən Berlin ali məclisi (konqresi) haqqında bilgi verilməsi istəyinə əsasən beşinci iclasda (21.VII.1878) patriarxın yazılı bəyanatı oxundu (dinlənildi).

Bizcə, bu yazılı bəyanatı əslində "erməni məsələsi"nin ortaya çıxarılmasının kiçik "salnaməsi" də adlandırmaq olar. Burada San-Stefano (Yeşilköy) müqaviləsinin (3.III.1878) XVI maddəsinə "gətirib çıxaran proseslər", oradan da 61-ci maddəyə "aparan yollar" və Berlin konqresinin ermənilər üçün nəticələri, irəlidə görüləsi vacib sayılan işlər və s.-dən bəhs edilirdi. Patriarx N.Varjabedyanın yazılı bəyanatını şərti olaraq "üç bölüm"ə də ayırmaq mümkündür. Onun birincisində (61-ci maddəyə "aparan proseslərdən" bəhs edən hissədə) patriarx öncə duyğusal-təbliğati məqamlara ("millət, keçmiş, gələcək, tarix və onun məhkəməsi qarşısında, "erməni millətini və Ermənistanı ayaqda tutan ataların ruhları və xatirələri önündə məsuliyyət, borc hissi") və s. toxunurdu.

Bu "bölüm"də və bütövlükdə yazılı bəyanatda güdülən başlıca məqsədlərdən biri də "erməni məsələsi"nin "yaşını artırmaq" idi (və buna da təəccüblənməyə əsas yoxdur, çünki o, erməni xislətinə tam yaraşan bir hərəkət, istək sayıla bilər). Patriarxın "kəşfi"nə görə, "erməni məsələsi" indiki şəkildə özü-özlüyündə yaranmamış və Şərq məsələsindən bu surətlə çıxmışdı: "Hələ nə Bosniya-Herseqovina, nə də Bolqarıstanın siyasi durumu problemi yox ikən, on ildən bəri (yəni 1868-ci ildən – İ.M.) bir erməni məsələsi vardı. Bu məsələ Ermənistanda (?! – İ.M.) məruz qaldıqları düşmənçiliklərdi (?! – İ.M.). İş hökumətlə millət arasındaydı. Millət davamlı olaraq siyasi məclisləriylə, millət (ermənilər – İ.M.) vəkillərindən meydana gələn heyətləri və patriarxları ilə bu zülmlərin (?! – İ.M.) aradan qaldırılmasını Osmanlı hökumətindən istəmişdi. Erməni məsələsi yalnız bu idi".

Göründüyü kimi, əlavə izahına əsla ehtiyac duyulmayan, tarixi həqiqətləri təhrif edən – yalanlarla dolu bir baxış ortaya qoyulmuşdu. Bu kimi mövqeyini açıqlayan N.Varjabedyan Balkanların adları çəkilən xalqlarının silahlı üsyanlar etdiklərini, Avropanın "axan qanlar"a müdaxiləsinin lazım gəldiyini, Osmanlı ilə qonşu olan digər böyük imperatorluğun (Rusiya nəzərdə tutulur – İ.M.) xristianlıq naminə hamıdan artıq səsini yüksəltdiyini və dövlətlərin İstanbulda bir konfrans (söhbət Tərsanə toplantısından gedir - İ.M.) keçirdiklərini vurğulayırdı.

Patriarxın özünün verdiyi "erməni milləti nə etdi?" kimi ritorik suala cavabı da tarixi gerçəklikləri yenə əks etdirməsə də düşündürücü idi: "Qanunlardan kənara çıxmadı (Onda bəs ermənilərin, rus-türk savaşları zamanı baş vurduqları hərəkətləri, vaxtaşırı təkrarlanan Zeytun üsyanları və s. kimin ayağına yazmaq lazımdır? – İ.M.). Ermənilər Osmanlı idarəsində olmaqdan məmnunsalar da ancaq durumlarından üzgündürlər və razı deyildirlər. Xristianların vəziyyətinin islahı söhbəti getdiyindən ermənilər də hal və şəraitlərinin rahatlanmasını bu ümumi islahatdan gözləməkdəydilər".

"Erməni məsələsi"nin və bunu yetişdirən "halların (durumun)" 1868-ci ildən mövcud olmasına dair iddialarla razılaşmaq mümkün deyildir. Və bu kimi mülahizələr (əslində yalan və iftiralar) 1983-cü ildə İzmirdə keçirilən "Türk tarixində ermənilər" simpoziumunda K.Gürün və digərləri tərəfindən tutarlı dəlillərlə təkzib olunmuşdur (3, 15-27). Bununla əlaqədar olaraq bəzi məqamları qeyd etmək istərdik. "Erməni məsələsi"nin hələ 1868-ci ildən ortada olduğundan dəmvuran patriarx Varjabedyanın özü Layardla 1877-ci ildəki görüşündə (1, 154) ermənilərin türk idarəsindən məmnun olduqlarını, Rusiyaya qatılmaqdansa Osmanlı idarəsində qalmağı üstün tutduqlarını və heç bir şikayət etmədiklərini bildirmişdi. Elə həmin dövrə aid erməni araşdırmalarında, məsələn, O.Oskanyanın ABŞ-da çap edilən "Sultan və xalqı" kitabında və M.Dadyanın Fransada 1867-ci ildə "Revue des Deux Mondes" toplusunda nəşr olunan məqaləsində, habelə digər çoxlu tədqiqatlarda ermənilərin Osmanlıdakı həyatlarından razılıqları və böyük dövlətlər, ələlxüsus da Rusiya tərəfindən qızışdırılmaları etiraf olunurdu (3, 16-20; 4).

Bunu bir daha təkrarlamaq məcburiyyətindəyik: əslində "erməni məsələsi" deyilən bir şey – Osmanlıda (tarixən bütün türk dövlətlərində, o cümlədən Azərbaycanda) ermənilərə bir millət kimi əlahiddə problemlər mövcud olmamışdır. Sadəcə böyük - maraqlı dövlətlərin geostrateji məqsədlərinin və erməni kilsəsinin maraqlarının gerçəkləşdirilməsi zərurəti bir vasitə kimi "erməni məsələsi"ni yaratmışdı. Bu işdə erməni kilsəsi, şübhəsiz, mühüm rol oynamışdı. Burada rus generalı-diplomatı A.Mayevskinin aşağıdakı fikrinə qatılmamaq olmur: "Erməni ruhani başçılarının din xüsusunda çalışmaları, demək olar ki, yox kimidir. Ancaq milli fikirlərin (alt qatlarında tamamilə başqa məqsədlər güdülən – İ.M.) yayılması sahəsində olduqca çox xidmətləri vardı" (5, 123).

N.Varjabedyanın "erməni məsələsi"nin başlanğıcını San-Stefano və Berlin müqavilələrindən (XVI və LXI maddələrin qəbulundan) təxminən on il əvvələ (1868-1869-cu illərə) aparıb çıxarması bir başqa, maraqlı problemdir. Buna görə də, burada bir çox türk (K.Gürün və b.), habelə erməni (H.Pasdırmacyan, O.Oskanyan, M.Dadyan) tədqiqatçılarının gəldikləri və bizim də qatıldığımız bir nəticə üzərində dayanmaq lazım gəlir. Belə ki, patriarxın bu baxışının kökünü əslində XIX əsrin 50-60-cı illərində ümumerməni kilsəsində və onun ətrafında cərəyan edən proseslərdə axtarmaq daha düzgün olardı. Məsələ burasındadır ki, o illərdə erməni kilsəsinin baş qolu (qriqorian məzhəbi) müəyyən problemlərlə üzləşmişdi və bəzi sıxıntılar keçirirdi. Yəni ki, Osmanlının türk və

erməni əhalisi arasında çox da ciddi problemlər olmadığı halda qriqorian kilsəsi və onun təmsil etdiyi toplumun içində baş verən hadisələr – sonu xeyli təhlükəli görünən – düşündürücü rahatsızlıqlar yaradırdı.

Bir tərəfdən, kilsədaxili parçalanmanın (elə erməni dini qurumlarının XIX əsrin 50-60-cı illərinə aid sənədlərinin (6) təsdiqlədiyi kimi) dərinləşməsi (katolik məzhəbinə keçənlərin 1831-ci ildəki ayrılmalarına 28 il sonra protestantların da qopmalarının əlavə olunması) qriqorianların sayını əhəmiyyətli dərəcədə azaltmaqla patriarxlığın siyasi mövqelərinə də zərbə vurur və onun nüfuzuna ciddi xələl gətirirdi. Digər tərəfdən də, Osmanlının İslahat fərmanının (1856) ermənilərə verdiyi imtiyazlar və habelə erməni toplumu ilə patriarxlığın arasında bu vaxtdan etibarən başlayan mübahisənin (erməni Milli Məclisinin tərkibi – zadəganlarla peşə sahiblərinin nisbəti və s. məsələlərlə bağlı ixtilafların) "Erməni Milləti Nizamnaməsi"nin (7) qəbulu ilə (1863) yekunlaşması qriqorian kilsəsini tarixi təhlükə ilə üzləşdirmişdi. Belə ki, o, dünyəvi hakimiyyətini itirə və patriarx isə sadəcə dini lider statusunda qala bilərdi.

Göründüyü kimi, patriarxlığın gələcəyi və nüfuzu, əldən verdiyi bəzi imkanların qaytarılması, onun dünyəvi hakimiyyəti və din pərdəsi altındakı siyasi oyunlarının perspektivi sual altına düşmüşdü. Belə bir təhlükənin qarşısının alınması təcili tədbirlər görülməsini tələb edirdi. Buna görə də, "xilas olmaq və qurtuluş yolunu tapmaq" üçün tezliklə və mütləq Osmanlı daxilində "muxtar Ermənistan" qurulması naminə təbliğata başlamaq lazım idi.

Belə bir tarixi "missiyaya" isə Hırimyan 1869-cu ildə patriarx seçkiləri ilə bağlı "Şərqi Anadoluda (onlara görə, Hayastanda – İ.M.) erməni xalqının həyat hüququ qazanması" adı altında aparılan hərtərəfli fəaliyyətlə təkan verdi. Bu "missiya-fəaliyyət" isə Nerses Varjabedyanın, burada incələdiyimiz yazılı bəyanatında, "on ildən bəri bir "erməni məsələsi" vardı" kimi qələmə verilirdi. Ayrı sözlə desək, 1878-ci ildəki patriarxın (Nersesin) on il bundan əvvəl də mövcud olduğunu iddia etdiyi "erməni məsələsi" onun 1869-cu ildəki həmkarının (Hırimyanın) "muxtar Ermənistan davası"ndan başqa bir şey deyildi.

N.Varjabedyanın həmin yazılı bəyanatının şərti olaraq "birinci bölüm" adlandırdığımız hissəsində digər mühüm məsələ kimi müəyyənləşdirdiyimiz məqam ermənilərin 16-cı maddəni San-Stefano müqaviləsinə necə daxil etdirmələrinə gətirilən açıqlamalarla bağlıdır. Bütün bu müddətdə heç də boş durmadığını vurğulayan patriarx İstanbul (elçilər) konfransından istədiklərini ala bilmədiklərini bir daha xatırlatmağı da unutmamışdı. Söz gəlişi, bu sənəddə "özünəməxsus hiss və keyfiyyətlərə sadiq qalan Osmanlı millətinin bir müddət böyük düşməni geri qovması (söhbət "93 hərb"indən, yəni Rusiya ilə 1877-1878-ci illərdə aparılan müharibədən gedir – İ.M.) və qəhrəmancasına dayanması ilə bütün dünyanı heyran etməsi" də etiraf olunur. Patriarx "93 hərbi"nin nəticələrinin Osmanlını fövqəladə dərəcədə həyəcanlandırdığını söyləməklə yanaşı ondan sonrakı danışıqlar mərhələsini ermənilər üçün "ölüm-dirim" məsələsi kimi səciyyələndirmişdi. "Ümumi şərtlər arasında erməni millətinin adının belə olmaması"nın doğurduğu ümidsizliyin dəf olunması mühüm bir

uğur sayılırdı.

Patriarxın yazılı bəyanatının San-Stefano müqaviləsinin XVI maddəsinin qazanılması və ondan sonrakı prosesləri əks etdirən növbəti (şərti olaraq ikinci) bölümündə də "erməni məsələsi"nin əsl mahiyyətini açıqlayan məqamlar çoxdur.

1. Burada yenə də "erməni məsələsi"nin ortaya çıxarılmasının və onun 16-cı maddə vasitəsi ilə dövlətlərarası münasibətlərə gətirilməsinin "səbəbləri"nə dair köhnə bayatılar təkrarlanırdı. Bütün dövlətlərdə təsadüf edilən "dəyərsiz məmurlar və onların pislikləri" halını (tezisini) prinsipial müddəa səviyyəsinə qaldıran Nerses bunu millətlərarası münasibətlər müstəvisinə daşıyırdı. Yazılı bəyanatda bu halın sultan və hökumət tərəfindən də təsdiqləndiyi (?! – İ.M.) yazılırdı. Eyni zamanda "dəyərsiz məmurlar"ın, kürdlər və çərkəzlərin hərəkətləri ilə yanaşı, indiyədək türk məmurlar tərəfindən idarə olunan Ermənistanda (?! – İ.M.) yaşayan ermənilər üzərində bir bəla (fəlakət və müsibət) olduğu bildirilirdi. "Ermənistan"da öz millətlərindən olan heç bir məmura rast gəlinmədiyini diqqət önünə dartan patriarx "erməniliyə" sadiq qalaraq Osmanlı idarəçiliyinin ən yüksək dairələrinə belə doluşan çoxsaylı soydalşarını qeyd etməyi "unudurdu".

Xüsusi maraq doğuran məqamlardan biri də "Şərq məsələsi"nin kontekstində milli problemin həlli variantları ilə əlaqədar idi. Bununla bağlı isə 1877-1878-ci illər rus-türk müharibəsinin "Şərq məsələsi"nin (o axarda da "erməni problemi"nin) həllində yeni situasiya yaratdığı qeyd olunurdu. Savaşdan əvvəlki variantın təhlilini verən patriarx istər-istəməz tarixi erməni yalanının üstünü açmalı olmuşdu. Belə ki, onun yazılı bəyanatında əksini tapan aşağıdakı fikirlər ermənilərin heç də "məmur özbaşınalıqlarından qurtulmaq davası" aparmadıqlarını aşkarlayırdı:

- indiki sultan taxta çıxarkən – savaşdan öncə gözəl təşəbbüs göstərərək qanuni, əsasi və bərabərlik prinsipləri ilə "Şərq məsələsi"ni həll etmək istədi;
- siyasi və idarə işlərində din fərqini qaldırdı (Belə ayrı-seçkilik heç əvvəllər də olmamışdı və Osmanlıdakı dini etiqad sərbəstliyi və ermənilərin ən yüksək vəzifələri tutmaları da buna sübutdur – İ.M.);
- hökumət öz məmurluqlarını bütün təbəəsi arasında bərabər olaraq böldü və yalnız bir fərqi (hər kəsin qüdrəti və şəxsi qiyməti) qəbul etdi.

2. Patriarx 1877-1878-ci illər müharibəsində Rusiyanın qələbəsinin "Şərq məsələsi"nin (o sıradan "erməni problemi"nin) yeni şəkildə həllinə şərait yaratdığını bildirdi. Bu zaman Balkanlardakı dəyişikliklərin "Ermənistan"a da şamil olunmasını istədiyini gizlətməyən Varjabedyan 16-cı maddənin onların milli problemini bütünlüklə həll etmədiyini yazırdı. Həm bunu, həm də digər bir amili ("gözlənilən təhlükəni"), yəni işin bitmədiyini, bəlkə də yeni başladığını da diqqət önünə aldıqlarını xatırladırdı. Burada söhbət yeni müharibə ehtimalının və Yeşilköy müqaviləsindən sonra Fərat çayıboyu bölgədə kəskinləşən rus-ingilis rəqabətinin 16-cı maddə üçün də "problemlər" doğura bilmə-

sindən gedirdi.

Nersesə görə, bölgədəki siyasi durum Böyük Britaniyanın maraqları ilə sıx əlaqədardı; buna görə də İngiltərə nə qədər erməni dostu olsa, fayda güdməsə (?! - İ.M.) və bu hisslər altında 16-cı maddənin yazılmasına rəhbərlik (?! - İ.M.) etsə də Rusiyanın öz mənfəətləri baxımından bölgədə yeni siyasi şərait yaratmaq istəməsi ilə razılaşmadı. Və ermənilərin bundan irəli gələn qorxusu, yəni 16-cı maddənin ləğvi, yaxud da dəyişdirilməsi məsələsi gündəmə gəlmişdi (Patriarx ləğvdən danışan "siyasi ağızlar"ın olduğunu xüsusi ilə vurğulayırdı). Lakin maddənin ləğvinin ingilislər kimi azad millət üçün "insaniyyətsizlik və qəddarlıq ola biləcəyi" baxımından yalnız bir yol qalırdı: onu ermənilər – Ermənistan (?! – İ.M.) üçün yazılan bir islahat maddəsi şəklinə salmaq və "erməni problemi"ni "Şərq məsələsi"ndən ayırmaq, yəni sırf "erməni məsələsi" etmək.

Buna yetişilməsi üçün Berlin konqresi ərəfəsi rəhbər tutulan "prinsiplər" və onun gedişində görülən işlərlə bağlı da maraqlı açıqlamalar patriarxın bəyanatında özünə yer almışdı. Həmin "prinsiplərə" görə, ermənilər unudulmuş adlarını yalnız öz səyləri hesabına xatırlada bilməzdilər. Buna görə də "qeybolmuş keçmiş və şanlı (?! - İ.M.) bir millətin nəvələri olduqlarını, özlərini dərk etdiklərini və hüquqlarını qorumağı bacardıqlarını Avropaya bildirməli idilər. Patriarxın konqresdəki işlərlə (uğurlarla) bağlı açıqlamaları da diqqətçəkicidir: hər dövlətdən ümidlər və rəsmi vədlər alınması; Fransa heyəti başçısının (Vaddinqtonun) ermənilərin davasının təmsilçisi və müdafiəçisi olması; "yüksək şəxslərin ən yüksəyi və diplomatların ən ustası olan məclis rəisi"nin (Bismarkın) ermənilərin problemlərini xüsusi olaraq incələməsi və ilk gündən etibarən onların işlərinə önəm verərək təmsilçilərin təqdim etdikləri sənədləri (layihə, statistika materialları və s.) gündəliyə salması.

Patriarxın yazılı bəyanatının bu hissəsində ingilis-türk müqaviləsinin (1878-ci il "Kipr sazişi"nin) konqresin ümumi nəticələrində və "erməni məsələsi"ndə yeni mərhələ açması da nəzərdən keçirilirdi. Patriarxın sazişə və onun nəticələrinə dair gəldiyi qənaətə görə:

- Avropa dövlətlərinin də əvvəlcədən sezmədikləri bu yeni siyasətə görə erməniləri suçlu saymaq düzgün və haqlı olmazdı;
- Türkiyə üçün böyük lütfkarlıq və ermənilərə görə də faydalı sayılan bu saziş Berlin konqresində Yeşilköy müqaviləsinin 16-cı maddəsi ilə məşğul olunmasını əngəllədi;
- saziş ermənilərlə bağlı İngiltərəyə xüsusi bir himayə məsuliyyəti versə də, onların məsələsinin tam və bütöv şəkildə gözönünə alınmasına maneə oldu;
- ermənilərin problemlərinin (?! – İ.M.) həllinə dair Rusiyanın təklikdə verdiyi vədi bütün böyük dövlətlərin kollektiv təminatı və nəzarəti ilə əvəz etdi.

N.Varjabedyanın bəyanatının şərti 3-cü bölümündə Berlin konqresi və orada bağlanan müqavilənin 61-ci maddəsinin ermənilər arasında yaratdığı

fikir ayrılıqları və gələcək fəaliyyətin yolları (üsul-vasitələri) şərh edilir, onlara münasibət bildirilirdi. Sənəddən bu da aydın olur ki, patriarx əsasən "narazılar"a ("bədbinlər"ə) bəzi mətləbləri anlatmağa və onları ümidləndirməyə çalışırdı. Sözgəlişi, elə Osmanlı və Rusiya erməni mətbuatında həmin dövrdə və sonralar çıxan yazılarda da təbliğat işinə diqqəti artırmaq tələb edilirdi. Məsələn, Qafqaz ermənilərinin öncüllərindən sayılan Q.Arzruni Tiflisdə ermənicə çıxan "Mşak" ("Fəhlə") qəzetində (1880, №160) yazırdı ki, ermənilər Berlin konfransına kürdləri, assurları, yezidləri erməni etdikdən (?! – İ.M.) sonra qüvvətli bir millət halında müraciət etsəydilər və silah işlətməyə, qan tökməyə qadir, qabiliyyətli kimi görünsəydilər konqresdən mütləq indikindən çoxunu ala bilərdilər və onların türkiyəli soydaşları da siyasi həyata layiq bir millət kimi tanınardılar) (2,254).

Patriarx "əgər bacarmayacaqdıqsa niyə başladıq?" kimi sorğuya "hansı millət ani bir şəkildə öz arzularına çatmışdır? sualı ilə cavab vermişdi. O həmçinin "millət davası"nı "bir gün bacarmaq" ümidi ilə sürdürməyi məsləhət görürdü. Ünvanına söylənilən iradları isə "mən bu işə öz-özümə təşəbbüs etmədim. Məndən əvvəl millətin ümumi arzusu mənimkindən daha şiddətli və güclüydü. Mən ancaq bu arzunu irəli aparmaq üçün rəhbərliyi üzərimə götürdüm" fikri ilə rədd edirdi. Patriarxın fikrincə, LXI maddədə acınacaqlı bir şey varsa o da ermənilərin probleminin həllini qismən gecikdirməsi, ümidlərini təmin etməməsi və gələcək üçün də mükafat verməməsi idi. İncələdiyimiz sənəddə həmin maddəyə daxildən və xaricdən edilən etirazların mahiyyətinə də toxunulurdu.

Daxildən olan etirazlar ermənilərin bəzilərindən qaynaqlanırdı. Həmin etirazlar isə "çünki az istədik, az aldıq, millətin arzularına qüsurlu tərcüməçi olduq. Və hətta qəsdən, düşürənək, bilərək bu arzuların nöqsanlı tərzdə idarəsi üçün çalışdıq" kimi ifadə edilirdi. Nersesə görə, millətdə təbii bir etimadsızlıq durumu yaratmaq istəyənlər öz soydaşlarından girov kimi istifadə edilməsində bu haldan dəlil-sübut olaraq faydalanmağa çalışırdılar. Onun beləlvalərinə öyüdverici və təbliğati səpkili cavabı da olmuşdu: altı aydan bəri çalışanların həyatları boyu bu cür işləmədiklərini, millət üçün kiminin varını-sərvətini, kiminin də nüfuzunu və şan-şöhrətini qurban verdiklərini, millətin layihəsindən tək bir hərfin çıxarılmaması naminə şəxsiyyətlərini və mənfəətlərini nə cür heç saydıqlarını, nə indi, nə də gələcək üçün heç bir şan və şöhrət ummayaraq necə də müqəddəs bir vətənsevərlik atəşiylə hərəkət etmiş olduqlarını və mənim bildiklərimi bilsəydi belə bir etirazı önə sürməklə vicdanı titrərdi.

Özünün yazılı bəyanatından da göründüyü kimi, patriarx xaricdən səslənən etirazlara daha çox hiddətlənmiş və onlardan hədsiz qayğılanmışdı. Çünki həmin etirazların məzmunu patriarxlığın "millət davası"nın mahiyyətini yaxşıca açıqlayan və bizcə, "erməni məsələsi"nin də tarixinə gur işıq salan, onun kökünü qazıyan bir mövqe (baxış) sayıla bilər: "Patriarxınızın milli problem adı verdiyi məsələ özünün icad etdiyi bir şeydir və millətin buna qarışacağı yoxdur". Nersesin buna cavabı isə "əzabkeş xalq" əfsanəsinə

əsaslanırdı: bu xarici, erməni millətinin xeyli illərdən bəri qopardığı sonsuz fəryadları eşitməmişdir və erməni Milli Məclisinin millət adından mənə verdiyi vəzifəni bilmir. Patriarx öz bəyanatında səsləndirdiyi "sultanın təsdiqləməsi və onun hakimiyyəti altında "Ermənistan və ermənilərin idarəsi" millətin problemi deyilmi?" və "Şərqdə bir erməni milləti olduğunu Avropanın bilməsi üçün millətlər məclisinə (Berlin konqresi nəzərdə tutulur – İ.M.) müraciət etməsəydim, məni bağışlardınızmı?" kimi ritorik suallarla soydaşlarını "haqsız və milləti danan etiraza" cavablar verməyə çağırırdı.

N.Varjabedyanın qənaətincə, erməni milləti Berlin konqresində aşağıdakılara nail olmuşdu:

- möhtəşəm (?! - İ.M.) adı ilk dəfə bir müqaviləyə düşdü (bu artıq San-Stefano sazişində baş vermişdi – İ.M.);
- bir sazişlə zülmlərdən və haqsızlıqlardan (olmayan şeylərdənmi? – İ.M.) qurtuldu;
- gələcəyinin toxumu qüvvətləndi;
- Avropa xalqı və hökumətləri tərəfindən tanındı və sevildi (?!-İ.M.).

Bütün bu uğurlardan sonra "qeybolma, bacarıqsızlıq, talesizlik, ümidsizlik, nəticəsizlik, üzü üstə buraxılmaq" kimi hallardan bəhs olunması ilə razılaşmayan patriarx "indinin özündə də böyük kürsülərdən Avropa dövlətlərinə ermənilər barədə suallar verildiyini" vurğulayırdı. Konqresin sonlarına yaxın oradakı nümayəndə heyətlərinə və İstanbuldakı səfirlərə (Layard və b.) edilən şikayətlərin verdiyi nəticə — məlum maddənin (LXI) qazanılması da sənəddə, problemin tamamən həll edilməməsi qeydi ilə, diqqətönünə çəkilirdi. Nerses 61-ci maddə ilə yanaşı ingilis himayəsini də ermənilərin qazancları sırasına daxil edirdi. Ümumiyyətlə, onun yazılı bəyanatında ingilis himayəsi və s. məsələlərə geniş yer verilməsi heç də təsadüfi olmayıb, bir sıra amillərlə şərtlənirdi:

a) "mənfəətləri, məqsədi, sevgisi bilinən böyük ingilis milləti"nin himayəsinə "erməni məsələsi"nin həlli üçün arzu edilən yön verilməsi işində ermənilərin öz qüvvələrinə ümidin olmaması heç kimə sirr deyildi;

b) Berlin konqresinin qərarının (61-ci maddənin) təsiri ilə "gözlərimizi, ümidlərimizi Rusiyaya döndərmək lazım deyildimi?" sualına cavab istəyənlər ("bədbinlər") də nəzərdən qaçırıla bilməzdi. Çünki onların Osmanlı Avropası – Balkan xalqlarının çarlığın himayəsi ilə "müstəqilliyə qovuşmaları təcrübəsi"ndən yararlanmağa meyllənmə təhlükəsi vardı. Yeri gəlmişkən, "erməni məsələsi"nin "həlli"nə dair "rus təcrübəsi"nin ilkin nəticələri, yəni Eçmiədzin katolikosluğunun durumu, milli assimilyasiya və s. artıq göz önündə idi. Digər tərəfdən də, LXI maddə ilə "erməni məsələsi"ni əldənverən Rusiyanın onlarla bağlı artıq dəyişilməkdə olan (əlbəttə, ki, müvəqqəti) siyasətinin konturları görünürdü. Belə ki, M.Ökenin (8, 80-81) obrazlı ifadəsi ilə desək, Rusiya 1877-1878-ci illər müharibəsi ərəfəsində "Yatmış gözəl" kimi qiymətləndirdiyi erməni millətçiliyinin "Frankşteyn canavarı"na çevrilməsindən narahat olaraq "erməni məsələsi"nin onun üçün yarada biləcək daxili problemlərdən xeyli

qayğılanırdı. Buna görə də o, Osmanlıda həyata keçirilməsi nəzərdə tutulan "erməni islahatı"nda əsla maralı deyildi. Çünki o, həm də Türkiyə ermənilərinin, İngiltərənin himayəsi ilə, müstəqillik-muxtariyyət "qazanmaları"nın çarlıqdakı soydaşlarına təsirini nəzərə alırdı. Habelə "əzabkeş xalq"ın Anadolu və Qafqazdakı hissələrinin bir-biri ilə işbirliyinə girərək birləşmələri ehtimalından ehtiyatlanırdı. Bu məqamlara dair mülahizələr rus diplomatiyasında da özünə yer almaqda idi. Araşdırmaçı M.Koublierin ingilis "Mavi kitabı"ndan əldə edərək özünün "Berlin müqaviləsindən bəri Şərq işləri" əsərində (Paris, 1899) izahını verdiyi – az sonrakı dövrdə (XIX əsrin sonlarına yaxın) söylənilən fikirlər də bunu təsdiqləyir (2, 270-272). E.Urasın da üzərində dayandığı həmin açıqlamalar (2,270-272) sırasında Rusiyanın Londondakı səfirinin: "Erməni suçludur, xeyir arzulayan deyildir. Yalnız Qafqazda deyil, hər yerdə qəbahətlidir. İmperatorluğun ərazi bütövlüyü üçün təhlükəlidir", habelə "Sərhədlərimizə yapışıq ikinci bir Bolqarıstan istəmirik" və xarici işlər naziri Levanov-Rostovskinin "biz ermənisiz Ermənistan istəyirik" kimi məqamlar xüsusilə önəmli və düşündürücüdür. Bütün bunlara görə də, patriarxlıq ingilis himayəsi ilə qazanılacaq nəticələrlə ruspərəstlərin neytrallaşdırılmasını istəyirdi və buna da çalışırdı;

**c)** İngiltərə himayəsinin ciddi şəkildə əldə edilməsinə habelə (ən əsası da) "Şərq (erməni) məsələsi"nin həllində onun başlıca sözsahibinə çevrilməkdə olması möhkəm əsaslar verirdi. Az sonrakı dövrə aid bir sənəd[(9)] – artıq İngiltərənin Baş naziri olan Solsberinin, İstanbuldakı ingilis səfiri vasitəsi ilə, Osmanlı sədrəzəmi Səid paşaya çatdırılan məktubu (25.VI.1895) bu məsələyə tam aydınlıq gətirilməsinə imkan yaradır. Orada yazılırdı: "Nə Almaniya, nə İtaliya, nə Avstriya İngiltərənin Şərq məsələsindəki siyasətinə əngəl ola bilməzlər. Fransa Rusiyaya sadiqdir. Osmanlı dövlətinin davamını təmin edən şey, yalnız və yalnız İngiltərənin Rusiya ilə mütəffiq olmaması, anlaşmamasıdır. Əgər ittifaq olur və onlar anlaşırlarsa təhlükə son nöqtəsinə, dərəcəsinə gələr. Osmanlı dövləti sona yetər" (XX əsrin əvvəllərində həqiqətən də belə oldu).

Nerses hələ bu açıqlamadan xeyli əvvəl, yəni Berlin konqresindən az sonra Mançester erməni komitəsinə (Q.Papazyana) ünvanladığı məktubda (2,252-253) "İngiltərənin Asiyada bir neçə milyon (?! – İ.M.) ermənini rusların qucağına atmaqla nə qazanacağını anlamadığını" yazmışdı. Həmçinin onun hərtərəfli və daimi himayəsinin əldə olunmasına çalışmağı tövsiyə etmişdi (Həmin məktuba "Əlavə"də konqres maddəsində (LXI) nə Ermənistan, nə erməni şəhəri, nə də islahat (patriarx burada yenə də yanlışlığa yol verir; çünki islahat sözü orada vardır – İ.M.) kəlmələrinin olmadığı vurğulanırdı. Habelə avropalıların, Türkiyənin ancaq yaxşı məmurlar seçilməsi ilə islah ediləcəyini və bu olmadıqca da türk məmurlarla bunun alınmayacağını (?! – İ.M.) indi də anlamadıqları diqqətə yetirilirdi).

N.Varjabedyanın, görüləsi vacib olan işlərlə bağlı, Q.Papazyana verdiyi tövsiyələr də nəzəri cəlb edir: ingilis ictimaiyyəti ilə iş aparılması; parlamentdə hökumətə sorğular verilməsi və "erməni davası"na mərdliklə yardım göstərmiş

iki hörmətli (şərəfli) kübar lorddan (Dizraeli və Solsberidən söhbət gedir – İ.M.) bu işdə istifadə olunması; ictimaiyyətin – qəzetlərlə, mitinqlərlə, toplantılarla, parlamentdəki sorğularla "erməni davası" üçün hökumətə təsir göstərməsi və s. Patriarxın, səs çoxluğu ilə qəbul edilən, məlum yazılı bəyanatı da "tarixi çağırış"la qurtarırdı: "Başladığımız işi davam etdirək. Gələcək üçün hazırlanaq. Ermənistana (?! – İ.M.) gedək". Həmin çağırışın davamı olaraq müxtəlif ölkələrə (Hindistan, "Ermənistan", İngiltərə, Rusiya, Türkiyə, Avstriya, İran) səpələnən ermənilərlə əl-ələ vermək, çeşidli peşə sahibi (müəllim, kilsə adamı, sərmayədar, tacir, sənətkar və b.) olan soydaşlara "Ermənistan"a yığışmaq məsləhət bilinirdi.

Belə bir vacib cəhəti də vurğulamağa ehtiyac görürük: konqres bitər-bitməz istər N.Çeras və N.Varjabedyanın həmmillətlərinə ünvanladıqları çağırışlarda nəzərdə tutulanların həyata keçirilməsinə, istərsə də bütövlükdə "erməni məsələsi"nin həlli"nə yönəlik tədbirlərə dair çoxlu yeni layihə, əsasnamə, bəyannamə, təlimatlar və s. Hazırlanmasına (10) başlanılmışdı. Burada yalnız bir təlimatda ifadə olunan çox maraqlı, "erməniliyi" yetərincə səciyyələndirən məqamları diqqətə yetirməklə kifayətlənirik. İstanbul erməni patriarxlığının "İslahat komissiyası" tərəfindən 1879-cu ilin ortalarında yepiskopluqlara göndərilən həmin təlimatda (11, 181-182, 48-49) olduqca mühüm "tövsiyələr" verilirdi:

- "erməni məsələsi"nin yaşadıla bilməsi üçün bütün məzhəblərdən olan ermənilər bu sahədə birlikdə olmalıdırlar;
- məktəblərdəki uşaqların beyinləri Ermənistan məsələsi ilə doldurulmalıdır;
- məktəb olmayan kəndlərdə keşişlər uşaqlara heç olmazsa imza atmağı öyrətməlidirlər. Oxuyub-yazmağı bacarmayan böyüklərə də yazmağı öyrətsinlər ki, heç olmazsa imzalarını ata bilsinlər. Çünki bu sonra lazım olacaqdır;
- harada olursa-olsun qarşıya çıxan avropalı yolçular (sərnişinlər) gülər üzlə qarşılanmalı, onların qulluqlarında durulmalı, ermənilərin qonaqpərvərliyi göstərilməlidir. Onlara keçmiş ermənilik hekayətləri anladılaraq erməni davasına (Hai Tahd) yardımçı olmaları təmin edilməlidir

Berlin konqresi və onun qəbul etdiyi müqavilənin 61-ci maddəsi ilə "erməni davası" ("Hai Tahd") yeni bir mərhələyə daxil oldu. Çoxsaylı arxiv sənədlərinin (12) də təsdiqlədiyi kimi, "erməni məsələsi" konqresdən sonrakı dövrdə – XIX əsrin qalan hissəsi boyu da "Anadolu islahatı" və ya "İslahat məsələsi" adı altında ardıcıl və sistemli şəkildə davam etdirildi.

## ƏDƏBİYYAT

1. Şimşir B. İngiliz Belgelerinde Osmanlı Ermenileri (1856-1880). İstanbul: Bilgi Yayınevi, 1986, 509 s.
2. Uras E. Tarihte Ermeniler ve "Ermeni Meselesi". İstanbul: Belge Yayınları, 1987, 798 s.
3. Gürün K. Erməni məsələsi, yaxud bir problem necə yaradılır? / Türk Tarihinde Ermeniler Sempozyumunun materialları. İzmir, 1983, s.15-27.
4. Bu barədə ətraflı məlumat üçün baxın: İlter E. Türk-Ermeni İlişkileri Biblioqrafyası. Ankara, 1997, 492 s.

5. Maevski A. Van. Bitlis Vilayetleri Askeri İstatistiği. İstanbul, 1912, 151 s.
6. Türkiyə Cumhuriyyeti Başbakanlık Osmanlı Arşivi (T.C.BOA). Hariciye Nezareti, Endikatör: MÜ-83, iç no: 23 610/80; Siyasi-III, Kutu no: 1329; İdari-I, Karton no:13447/1.
7. T.C.BOA, Buyruldu Defteri, №5, vv. s.44-57.
8. Öke M. Ermeni Sorunu, 1914-1923. Ankara, 1991, 319 s.
9. Osmanlı Arşivi. Yıldız Tasnifi. Ermeni Meselesi. Talori Olayları, Cilt I, s.XIV; Said Paşa'nın "Hatırat"ı, C.I, s.271.
10. T.C.BOA, Dosya: Yıldız Esas Evrak, Dosya no: Kısım-36, Evrak-334, no: Zarf-50, Karton no: 97, iç no: 72-74, 78-79; Kısım-33, Evrak-1719, iç no: Zarf-73, Karton no: 91.
11. Hocaoğlu M. Tarihte Ermeni Mezalimi ve Ermeniler, İstanbul, 1976, 372 s. ;İlter E. Ermeni Kilisesi ve Terör, Ankara, 1996, 234 s.
12. T.C.BOA, Dosya: Yıldız Esas Evrak, Dosya no: Kısım-31, Evrak-323, iç no: Zarf-108, Karton no: 80, Evrak-2004, iç no: Zarf-45, Karton no: 83; Kısım-35; Evrak-2344, iç no: Zarf-50, Karton no: 97; Hariciye Nezareti, Endikatör: Tercüme Siyasi, Karton no: 13, Dosya: 1, iç no: 8600/257 və s.

## СТАТЬЯ 61 БЕРЛИНСКОГО ДОГОВОРА: ВЗГЛЯДЫ И ПОЗИЦИИ

**И.М.МУСА**

**РЕЗЮМЕ**

В статье исследуются научно-политические вопросы связанные со статьей 61 Берлинского договора. Здесь раскрывается сущность «армянского вопроса», сформулированной этой статьей.

Далее в ней рассматриваются главные цели великих держав (Англии, России и др.) в деле создания «армянского вопроса». Статья написана на основе изучения и анализа многочисленных дипломатических документов Османской империи и западных государств.

**Ключевые слова:** Берлин, конгресс, договор, статья 61, церковь, армянин

## ARTICLE 61 of BERLIN AGREEMENT: VIEWS AND POSITIONS

**I.M.MUSA**

**SUMMARY**

The article studies scientific-political questions on Article 61 of Berlin Agreement. The essence of " the Armenian question" is revealed.

Furthermore, the article analyzes the major goals of great powers (as England, Russia etc.) in the formation of the "Armenian question". The article researches a number of relevant diplomatic documents of the Ottoman Empire and Western states.

**Key words**: Berlin, congress, agreement, Article 61, church, Armenian